History of Science
Vol 6, issue 2, serial 20, 2025, pp.208-213

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# MUSA CARULLAHIN "HATUN" KİTABINA DAİR

**Abdulla Əliyev**[1]
**Qafqaz Abdurrahmanov**[2]

**UOT:** 297.2:316.34
**KBT:** 86.3: 60.56
**HoS:** 73
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.208-213




**Kitabın adı:** Hatun

**Müəllif:** Musa Carullah

**Kitabın dili:** Türkcə

**Nəşr ili:** 2014

**Səhifəsi:** 168

**Nəşriyyat:** Otto

**Ölkə:** Türkiyə, Ankara

**ISBN:** 978-605-4696-48-2

[1] Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq ixtisası" üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: abdullaeliyev2023.@gmail.com
https://orcid.org/0009-0004-6318-7121
[2] İslam Elmləri Bölməsi, Azərbaycan İlahiyyat İnstitutu; Bakı, Azərbaycan
E-mail: qafqazabdurrahmanov@ait.edu.az
https://orcid.org/0000-0003-3138-2796
**Məqaləyə istinad:** Əliyev, A., & Abdurrahmanov, Q. [2025]. Musa Carullahın "Hatun" kitabına dair. *History of Science jurnalı*, *6*(2), səh.208-213.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.208-213

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 11.04.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 12.05.2025*
*Çapa qəbul edilmişdir: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

"Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam" [Bəqərə, 30] əmri ilə başlayan insanlıq tarixi, Allahın Həvvanı Adəmə zövcə edib, ikisini cənnətdə məskunlaşdırması, daha sonra Həvvanın şeytan tərəfindən aldadılaraq hər ikisinin cənnətdən qovulmasına səbəb olması hadisəsi kontekstində qadın daima diqqət mərkəzində olmuş və bir çox nöqteyi-nəzərdən müzakirə obyektinə çevrilmişdir. Tarixin demək olar hər dövründə qadın hər bir hadisədə özünəməxsus rolla çıxış edərək cəsarətlə yanaşı mərhəmət və zəriflik nümunəsinə çevrilmişdir. İstisnalar xaric olmaqla qadın daima ailələrin əsasını təşkil edən məhək daşı olmuşdur. Başqa bir təbirlə desək qadın həm ailədə, həm də cəmiyyətdə öz sözünü deyib müsbət töhfələr verən bir fərd olmuşdur. Tarix boyunca qadın müxtəlif cəmiyyətlərdə fərqli statuslara sahib olmuşdur. Belə ki, matriarxat ailə quruluşunun hakim olduğu bəzi ibtidai cəmiyyətlərdə qadın müqəddəsləşdirilirkən, patriarxat ailə quruluşunun hökm sürdüyü cəmiyyətlərdə isə qadınlar kişilərlə müqayisədə ikinci dərəcəli statusa sahib olmuşdur. Bununla birlikdə, bəzi cəmiyyətlədə qadınların kişilərlə bərabər status və hüquqlara sahib olduğunu da qeyd etmək mümkündür.

İslam peyğəmbərinin (s.ə.v.) qadına verdiyi dəyər ilə müasir dövrümüzdə qadınları uğursuzluq, insanlığın Cənnətdən qovulmanın səbəbkarı olaraq görən, onları şeytanla əlaqələndirən düşüncədəki insanların fikirləri müqyisə edildiyində bunların arasında böyük bir uçurumun olduğunu desək heç də mübaliğə etməmiş olarıq. Peyğəmbər (s.ə.v.) vida həcci üçün səfərə çıxarkən yolda baş vermiş bir hadisə onun qadınlara nə qədər dəyər verdiyini göstərmək baxımdan çox gözəl bir nümunədir. Belə ki, Peyğəmbərin (s.ə.v.) əziz xanımlarının da arasında olduğu qafiləni daşıyan dəvələr, onlara istiqamət göstərən Əncəşənin gözəl səsinə uyğun bir şəkildə addımlayırdılar. Əslən Həbəşistanlı olan Əncəşə, müqəddəs səfərin verdiyi həvəslə şeirlər oxuyur və oxuduğu bu şeirlər dəvələri coşdururdu. Bu qədər ritm və həyəcan dəvələri sürətləndirmiş və yırğalamaları dəvələrin üzərindəki xanımları narahat etməyə başlamışdır. Peyğəmbər (s.ə.v) narahat olaraq və hər zamankı nəzakəti ilə Əncəşəyə səslənərək: "Ey Əncəşə amandır sakit ol! Büllurlara diqqət et!" deyərək qadınları zərif büllura bənzədərək dəyər verməsi, nəzakət və elm sahibi müasir insanlara bir nümunə təşkil etməlidir.

Allah tərəfindən uca və ali bir varlıq olaraq yaradılmış qadın tarixin müxtəlif dövrlərində və bəzi cəmiyyətlərdə qeyri-adil rəftarlara məruz qalmışdır. Məsələn klassik Yəhudi ravvin ədəbiyatında hər gün səhər ibadətində oxunan duada "Ya Rəbb, məni qadın etmədiyin üçün Sənə şükür!" cümləsinin deyilməsi, ibadət etməyən qadının dəyənəklə cəzalandırılması, ibadətlərdən uzaqlaşdırılması kimi hallar sözügedən cəmiyyətlərin qadına qarşı mənfi münasibəti aşkar bir şəkildə ortaya qoyur. Xristianlığın müqəddəs kitabında isə qadına qarşı münasibətin daha fərqli olduğuna şahid ola bilirik. Onlara görə qadın kişinin şərəfidir, kişi qadınsız, qadın kişisiz mövcud ola bilməz [Korinfil, 11-7], hər kəs öz xanımını özünü sevdiyi kimi sevsin, xanım da yoldaşına dərin hörmət bəsləsin [Efes, 5:33] cümlələri qadınla kişinin bir-birinə tay, həmdəm və bərabər hüquqlu varlıq, ikisinin də hörmətə layiq olduğuna, qayğıda, hörmətdə və nəvazişdə heç birinin digərindən üstün olmadığına nümunə olaraq göstərilə bilər.

Qadın üçün həyat yoldaşı, atası, qardaşı kimi işləməyə və yaxud eyni dərəcədə təhsil almağa şərait yaradılmış cəmiyyətlərdə ancaq qadın və kişilərin bərabər hüquqlara sahib olduğundan söhbət gedə bilər. Mühüm olaraq qeyd etmək lazımdır ki, qadına verilən dəyər, hörmət təkcə kişilər tərəfindən deyil, eyni zamanda qadınların özləri tərəfindən də verilməlidir. Cəmiyyətdə bərabər yaşadığımız hərbir fərdə hörmətlə yanaşmalı, daha əvvəl İncildən gətirdiyimiz nümunədəki kimi kişi öz yoldaşına özünə hörmət etdiyi kimi hörmət etməlidir. Başqa bir təbirlə qeyd etsək, sağlam təməllər əsasında qurulmuş bir cəmiyyət qurmaq istəyiriksə hər şeydən əvvəl cəmiyyəti formalaşdıran fərdlər arasındakı dəyərləri

möhkəm təməllər üzərində inşa etməliyik. Odur ki, "ağac yaş ikən əyilər" prinsipindən yola çıxaraq cəmiyyətin gələcəyini formalaşdıracaq gənc nəsillərə özlərinə və dəyərlərə hörmət bəsləməyi aşılamaq labüddür. Anaya, ataya, ailəyə, dövlətə, ətrafa qarşı məsuliyyətli və nəzakətli bir fərd yetişdirmək onun özünə qarşı bir mənəvi yatırımı hesab olunur. Beləliklə, özünə hörmət edən və bu dəyərlə yetişən insan öz ətrafındakı insanlara qarşı cins, yaş, status kimi prizmalardan yanaşmadan, ayrıseçkilik etmədən bərabər münasibət göstərəcəkdir.

***2.Müəllif haqqında müxtəsər məlumat***

İlahiyyatçı Musa Carullah Biqiyev öz xatirələrinə görə 1875 ci ilin Noyabr - Dekabr aylarında indiki Rusiya federasiyasının Rostov vilayətinin Novoçerkask bölgəsində anadan olmuşdur. Bəzi mənbələrdə isə Bigiyevin 1873, 1874 və ya 1879-cu illərdə indiki Belinski Penza bölgəsində dünyaya gəlməsi haqqında məlumatlar mövcuddur. Atası ticarətlə məşğul olduğu üçün Rostov vilayətinə köçən Bigiyev bəzən Musa Rostovski (Rostov Doni) olaraq də adlandırılmışdır. Musa Carullah zəngin bir kəndli ailəsində ailənin ikinci övladı olaraq doğulmuşdur. Rus dili ilə yanaşı, dini biliklərə bələd olan atası yaşadıqları kəndə axund təyin olunmuşdur. Bölgədə Molla Carullah olaraq tanınan axundun xanımı isə Molla Həbibullahın qızı Fatimə xanımdır. Musa Carullah bir yazısında özünü "İbn Fatimə" təxəllüsü ilə də təqdim etmişdir.

İbtidai təhsilini evdə tamamlayan Biqiyev bir müddət yaşadığı Rostov şəhərindəki gimnaziyasında təhsilinə davam etmişdir. Daha sonra isə anası Fatimə xanım təhsilini davam etdirmək üçün onu böyük qardaşının da oxuduğu Kazana göndərmişdir. 1888-ci ildə Kazandakı Kül Buyi (Göl Boyu) mədrəsəsinə qəbul olan Bigiyev 1895-ci ildə dini təhsilini davam etdirmək üçün Buxara mədrəsəsinə getmişdir. Buxarada mədrəsələrdə təhsil alan Biqiyev, hüquq və fəlsəfə kimi elmlərə yiyələnmiş, oradaki müəllimləri üçün müxtəlif əsərlərin Rus dilinə tərcümə edilməsində köməklik göstərmişdir. Bir müddət sonra (4 il sonra) Rostova qayıdan Biqiyev ali məktəbə qəbul olmaq üçün müraciət etmişdir. O, təbiət elmləri üzrə ali təhsil almaq istəsə də latın dilini bilməməsi səbəbindən buna nail ola bilməmişdir. Bu hadisədən sonra İstanbula gedən Bigiyev əvvəlcə burada mühəndislik məktəbinə müraciət etmiş, amma daha sonra bu fikrindən vaz keçərək dini elmlərə yiyələnmək niyyətinə düşmüşdür. Ancaq Osmanlı imperiyasının paytaxtında istədiyini tapa bilməyənincə dini təhsilini təkmilləşdirmək məqsədilə Qahirəyə yola düşmüş və burada İslam hüququ (fiqh) və hədis dərsləri almışdır. O, Qahirədə dövrünün mütərəqqi alim və mütəfəkkirləri olan Muhəmməd Abduh (v.1905) və Muhəmməd əl-Bəhit (v.1935) ilə şəxsən tanış olmaq fürsəti əldə etmiş və onların mühazirələrini dinləmişdir. Bununla yanaşı, Qahirədə təhsil aldığı müddət boyunca Bigiyev burada müxtəlif kitabxanaları ziyarət etmiş və qədim Quran əlyazmalarını tədqiq etmək imkanı əldə etmişdir. Qahirədən sonra Məkkə və Mədinəyə gedən Musa Carullah, daha sonra Hindistan, Suriya, Livan kimi şəhərləri gəzərək buradakı kitabxanalardakı əsərlərlə tanış olmuş, müxtəlif ilahiyyatçıların mühazirələrini dinləmişdir. Bu səfərlər onu ərəb və fars dillərini öyrənməyə sövq etmiş və dərin bilikləri ilə insanların diqqətini çəkməsinə səbəb olmuşdur.

1904-cü ildə vətəni Rusiyaya qayıdan Bigiyev 1905-ci ildən etibarən Sanq-Peterburq universitetinin hüquq fakültəsində mühazirələr deməyə başlamışdır. Sanq-Peterburqa gələn Bigiyev burada Rusiya müsəlmanlarının ictimai-siyasi fəaliyyətlərində aktiv bir şəkildə iştirak etmişdir. O, dostu Əbdürrəşid İbrahimovla bərabər nəşr etdirdiyi "Ülfət", "ət-Tilmiz" kimi innovativ qəzet və məcmuələrlə Rusiya müsəlmanlarının siyasi fəaliyyətləri, insan haqları, məktəb və mədrəsələrdə islahatların aparılması və s. kimi mövzularda yazılar yazaraq Rusiya müsəlmanlarının icrimai-siyasi fəaliyyətlərinə dəstək vermişdir. Bununla yanaşı, o, ümumrusiya müsəlman qurultaylarının təşkilində və Rusiya müsəlmanlarının "İttifaq əl-Müslimin" liberal partiyasının yaradılmasında da iştirak etmişdir. Bigiyev Avqust 1906-cı ildə çağrılan Rusiya Müsəlmanları İttifaqının 3-cü qurultayında sözügedən

təşkilatın mərkəzi komitəsinə seçilmişdir. Eyni dövrdə o, "əl-İslah" və "əl-Əsr əl-Cədid" kimi bir sıra dövri mətbuatlarda müsəlman təhsili sistemində islahatlar və s. bir sıra aktual mövzularda məqalələr dərc etdirmişdir.

1920-ci ilin sonlarında bolşevik işğalından sonra Buxaraya gedən Bigiyev orada bir mədəniyətin necə məhv edildiyinin şahidi olmuşdur. O, 1921-ci ildə Daşkənddə Sovet İttifaqına qarşı propoqanda aparmaq ittihamı ilə həbs edilmişdir. 11 aylıq dustaqlıq həyatından sonra Leninqrad şəhərinə gedən Bigiyev buradakı məsciddə imamlıq vəzifəsinə başlamışdır. 1923-cü ildə Berlində nəşr etdirdiyi "İslam xalqlarına" kitabının işıq üzü görməsindən sonra yenidən üç aylıq həbs edilmiş və ardınca üç il müddətinə Moskvaya sürgün edilmişdir.

1930-cu ilin sonlarından etibarən Sovet torpaqlarında müsəlman din xadimlərinə qarşı repressiyaların artması səbəbindən ailəsini tərk etmək məcburiyyətində qalan Bigiyev, əvvəlcə Əfqanıstan və Hindistana, daha sonra isə Misirə qaçmışdır. O, 1934-cü ildə İran və İraqa ziyarətlər etmiş və burada Şiə məzəhəbi haqqında tədqiqatlar aparmış, Möhsin əl-Əmin kimi Şiə müctəhidlərlə görüşərək fikir mübadiləsi aparmaq fürsəti əldə etmişdir. Daha sonra o, Misirdən Hindistana, oradan da Yaponiyaya getmiş və 1938-ci ilin axırlarına qədər Tokyoda qalaraq tədqiqatlar aparmışdır. İkinci dünya müharibəsinin başlamasından sonra Hindistana gedən Bigiyev Yaponiya tərəfdarı olmaq ittihamıyla burada bir il yarım müddətinə həbs edilmişdir. Bir il yarımdan sonra Bopal şəhərində şərtli olaraq azadlığa buraxılmışdır.

Bigiyev 1944-1946-cı illər arasında on əsər nəşr etdirmişdir. Səhhətindəki problemlərə görə müalicə almaq üçün 1947-ci ildə əvvəlcə Qahirəyə, sonra isə İstanbula getmişdir. Türkiyə vətəndaşlığına qəbul olunsa da, İstanbuldakı hava səhhətinə mənfi təsir etdiyindən yenidən Qahirəyə qayıtmışdır. Tatar xalqının böyük mütəfəkkiri Musa Carullah Bigiyev 25 oktyabr 1949-cu ildə, on doqquz il uzaqda olduğu ailəsini görməyə macal tapmadan Qahirədə vəfat etmiş və Əfifdəki Hidiviyyə qəbiristanlığında dəfn edilmişdir.

### *3. "Hatun" kitabı haqqında müxtəsər məlumat*

Günümüzdə daha çox səsləndirilən "qadın haqları", "qadınlara hörmət", "bərabərlik" kimi fikirlər və "feminizm" kimi cərəyanların yaranması qadının cəmiyyətdə, ailədə mövqeyinə diqqət çəkirmiş kimi görünsə də, bu mövzuda qadınlara verilən dəyərin ən gözəl ifadəsini bir əks cins nümayəndəsi olaraq təsvir edən Musa Carullah Biqiyev bir örnək təşkil edir. Biqiyev qadınların problemlərini illər öncə görüb, müsəlman qadınlarının problemli məsələlərinə dair kitab yazma ehtiyacı duymuş və 1933 cü ildə "Hatun" kitabını qələmə almışdır.

Əsəri nəşrə hazırlayan professor Mehmet Görməzin kitab haqqındakı qeydlərinə nəzər yetirsək görərik ki, Musa Carullah "Hatun" kitabını 1916 ci ildə qələmə almış, 1933 cü ildə isə Berlində çap etdirmişdir. Prof. Mehmet Görməzin verdiyi məlumata görə, əsər yarı Osmanlıca, yarı Tatar türkcəsi ilə qələmə alınmışdır. Qeyd etmək lazımdır ki, kitabı fəsillərə ayrılması, qeydlərin və əlavələrin artırılması Mehmed Görməzə aiddir.

Musa Carullah kitaba başlayarkən ilk öncə kitabı xanımı Esma Aliyə xanıma ithafən yazdığını qeyd edir. Onun zəhmətinə, məşəqqətinə qatlanmasına, şəfqətli və mərhəmətli rəftarına qarşılıq olaraq "ömürlük qüsurlarımı əfv etmək yolunda qəbul etmən" diləyi ilə yazılan bu kitab qadınlara hörmət olaraq Peyğəmbərimizin anası başda olmaqla bütün islam xanımlarına ehtiram təqdim olunaraq davam edir.

Əsər müqəddimə və beş fəsildən ibarətdir. Kitabda qadının cəmiyyətdəki dəyəri, nikah, talaq (boşanma), miras məsələləri və qadının şahidliyi kimi mövzular müxtəlif aspektlərdən təqdim olunmuşdur.

Qadının (Xatun) cəmiyyətdəki dəyəri (s.29-52) adlanan birinci fəslə müəllif müsəlman türk cəmiyətlərində qadın sözünü ifadə etmək üçün istifadə edilən "Xatun", "Qadın",

"Hərəm", "Arvad" terminlərini təhlil etməklə başlayır. Daha sonra isə dünya və Türk ədəbiyatında qadın təsəvvürü geniş bir şəkildə izah edilir. Bununla birlikdə, müəllif sözügedən bölümdə İncil, Tövrat və Qurani-Kərim kimi səmavi kitabların qadına qarşı münasibətini açıqlamağa çalışır.

Kitabın ikinci fəsli hicab, ailə həyatı və qadın haqqları adlanır (s.53-77). Bu fəslin əsas müzakirə obyekti hicab məsələsidir. Müəllif bu bölümdə hicab məsələsini müxtəlif nöqteyi nəzərlərdən müzakirə obyektinə çevirmişdir. Əvvəla Qurani-Kərimə görə hicab mövzusuna toxunulmuş, irəliləyən səhifələrdə isə məzhəb alimlərinin və sufilərin hicab mövzusundakı fikirlərinə toxunulmuşdur. Sonda isə Qurani-Kərim ayələri və fıkh kitabları kontekstində qadın haqları mövzusu izah edilmişdir.

Kitabın üçüncü fəsli nikah və çox evlilik adlanır (s.79-107). Bu fəsildə müəllif nikah əqdinin mahiyətindən, evlilikdə qadının razılığından və tək evliliyin əhəmiyyəti kimi aktual mövzulara toxunur. Ardınca İslamda ailə modeli haqqında məlumat verilir.

Kitabın dördüncü fəsli talaq (boşanma) adlanır (s.109-124). Bu fəsildə Quran ayələrində boşanma üçün təqdim olunan 5 mərhələdən bəhs edilir. Daha sonra isə müəllif İslam hüququ nöqtəyi-nəzərindən qadınlara boşanma səlahiyətinin verilməsi mövzusunu müzakirə edir.

Kitabın "vərəsəlik hüququndaki fərqliliklər və qadının şahidliyi problemi məsələsi" (s.125-142) adlanan sonuncu fəslində müəllif mövzuya vərəsəlik hüququ ilə başlayır və İslam hüququnda qadına mirasdan daha az pay verilməsinin səbəblərinə aydınlıq gətirməyə çalışır. Ardınca isə qadımların şahidliyi problemi mövzusunu müzakirə obyektinə çevirir.

### *4.Nəticə*

Modernizmin ortaya çıxması ilə birlikdə, qadın mövzusu ən aktual və ümdə məsələlərindən birinə çevrilmiş və sözügedən mövzu möxrəlif nöqteyi-nəzərlərdən müzakirə obyektinə çevrilmişdir. Başqa bir təbirlə qeyd etsək, qadın mövzusunun modernizmin ayırdedici əlamətlərindən birinə çevrilməsi, bu məsələyə diqqətləri daha da çox cəlb etmiş, müxtəlif sahələrdə qadının qarşı-qarşıya qaldığı problemlərin həll yollarının tapılmasına istiqamətində addımların atılmasına təkan vermişdir.

20-ci əsrin mütəfəkkirlərinin böyük əksəriyyəti qadınların intellektual cəhətdən kişilərdən heç bir fərqi olmadığını və savadlı olduqları təqdirdə onlarla bərabər olduqları fikrini mənimsəmişlər. Bu fikrə şərik çıxan mütəfəkkirlərdən biri də Tarar əsilli Musa Carullah Bigiyevdir. Bigiyev, mövzu ilə əlaqədar qələmə aldığı "Hatun" adlı kitabında qadın haqlarına geniş yer vermiş, qadınların təhsil almalarının zəruri olduğunu xüsusilə vurğulamışdır. O, fikirlərini ayət və hədislərlə əsaslandırmağa çalışmışdır. Qurandan sonra İslamın ikinci əsas mənbəyi hesab edilən hədislərə nəzər yetirildiyində İslam Peyğəmbərinin (s.ə.v.) qadınlara xüsusu dəyər verdiyi, onları təhsil almaqdan kənarlaşdırmadığı xüsusunun öz əksini tapdığını görmək mümkündür. Məşhur hədis alimi İmam Buxaridən nəql edilən bir hədisə görə, Peyğəmbərin (s.ə.v.) yanına gələn bir xanım səhabə: "Ey Allahın Peyğəmbəri (s.ə.v.) sənin dərslərindən həmişə kişilər istifadə edir." deyərək şikayət etmişdir. Bunu eşidən Peyğəmbər (s.ə.v.) qadınları da təhsildən məhrum etməmək üçün onların müəyyən vaxtlarda bir yerə toplayaraq onlara dini biliklər öyrətmişdir.

Nəticə olaraq qeyd etmək mümkündür ki, Musa Carullah Bigiyev 1919-cu ildə qələmə almasına rəğmən, 1933-cü ildə nəşr etdirdiyi "Hatun" kitabında, qadın mövzusunu, əsasən ənənəvi İslam düşüncəsinə tənqidi bir metodla müzakirə obyektinə çevirmişdir. O, kitabında qadının yaradılışı, ailə quruluşu, nikah, boşanma, çox evlilik, qadının şahidliyi, qadının mirasdan aldığı pay və s. kimi aktual mövzuları müzakirəyə açmışdır. O, əsərində fikirlərini Quran ayələri ilə əsaslandırmağa çalışır. Amma qeyd etmək lazımdır ki, o, bəzən ayələri açıqlayarkən kontekstdən kənara çıxmış və mübaliğəli fikirlər səsləndirmişdir. Xüsusilə,

onun qadın haqları və hicab mövzusu ilə əlaqədar səsləndirdiyi iddialı fikirlər günümüzdə də bir çox müzakirələrə səbəb olmuşdur. Bütün bunlara rəğmən, Bigiyev "Hatun" kitabı ilə qadın mövzusu haqqında Quran mərkəzli yeni bir cığır açmış və özündən sonra gələn tədqiqatçılara ilham vermişdir.

## *5.REFERENCES*

1. Kirikkale University. (2024). *Women and women's rights in history from past to present.* https://kku.edu.tr/Anasayfa/Haber/Index/3439 (in Turkish)
2. Harman, O. F. (2001). Woman. *TDV Islamic Encyclopedia*, 24, 82–86. Istanbul. (in Turkish)
3. Kanlidere, A. (2020). Musa Carullah. *Turkey Religious Foundation Islamic Encyclopedia*, 31, 214–216. Ankara. (in Azerbaijani)
4. Qur'an al-Karim (meaningful translation into Azerbaijani). (n.d.). Baku: N Print Studio LLC. 576 p. (in Azerbaijani)
5. Marti, H. (2021). *Women in hadith.* Ankara: Presidency of Religious Affairs. (in Turkish)
6. musacarullah.blogspot.com. (n.d.). [Blog]. Retrieved from http://musacarullah.blogspot.com (in Turkish)
7. Terzioglu, H. (2016). Modern approaches to the position of women in Islam—The case of Musa Carullah. *Sakarya University Faculty of Theology Journal*, XVIII(33). June 2016. (in Turkish)
8. Ulas, S. (2002). On Musa Carullah's book entitled *Hatun* and the Islamic woman. Ankara. (in Turkish)
9. Bigenc.ru. (n.d.). Retrieved from https://www.bigenc.ru (in Russian)
10. JW.org. (n.d.). Retrieved from https://www.jw.org (in English)

## *ƏDƏBİYYAT*

1. Kırıkkale Üniversitesi. (2024). *Geçmişten Günümüze Tarihte Kadın ve Kadının Hakları.* https://kku.edu.tr/Anasayfa/Haber/Index/3439
2. Harman, Ö. F. (2001). Kadın. *TDV İslam Ansiklopedisi*, 24, 82–86. İstanbul.
3. Kanlıdere, A. (2020). Musa Carullah. *Türkiyə Dəyanət Vəqfi İslam Ensiklopediyası*, 31, 214–216. Ankara.
4. Qurani-Kərim (Azərbaycan dilinə mənaca tərcüməsi). (n.d.). Bakı: N Print studiya MMC, 576 s.
5. Martı, H. (2021). *Hadislerle Kadın*. Ankara: Diyanət İşləri Başkanlığı.
6. musacarullah.blogspot.com. (n.d.). [Blog]. Retrieved from http://musacarullah.blogspot.com
7. Terzioğlu, H. (2016). İslam'da Kadının Konumuna Modern Yaklaşımlar—Mûsâ Carullah Örneği. *Sakarya Üniversitesi İlahiyat Fakültesi Dergisi*, XVIII(33). Haziran 2016.
8. Ulaş, S. (2002). *Musa Carullah'ın Hatun Adlı Kitabına ve İslam Kadınına Dair.* Ankara.
9. Bigenc.ru. (n.d.). Retrieved from https://www.bigenc.ru
10. JW.org. (n.d.). Retrieved from https://www.jw.org